


# Təhsil müəssisələrində şəhidlərimizin əziz xatirəsi hörmət və ehtiramla yad olunub

**BDU.** Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Bu barədə AZƏRTAC-a BDU-dan məlumat verilib. Bildirilib ki, tədbirdə sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev çıxış edərək 20 Yanvar hadisələrindən danışıb. O, faciənin tariximizin qanlı, eyni zamanda, qəhrəmanlıq səhifəsi olduğunu bildirib.

S.Mirzəyev bu tarixi günün yad edilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün böyük əhəmiyyət kəsb etdiyini deyib.

Fakültənin professoru Cahangir Məmmədli Qanlı Yanvar gecəsinin canlı şahidi kimi baş verən prosesləri əbədi olaraq yaddaşına həkk etdiyini, faciənin necə ağrılı-acılı bir hiss olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, 20 Yanvar faciəsini xalqımız heç vaxt unutmayacaq.

Fakültənin tədris işləri üzrə dekan müavini Esmira Rövşənova, əməkdaşlardan Diləfruz Şahbazova, Zibeydə Mirzəyeva 20 Yanvar hadisələrinin dəhşətlərindən bəhs ediblər.

Jurnalistika fakültəsinin birinci kurs tələbələri Anar Hüseynov, Fidan Bəbirova və Sərvinaz Hacalıyevanın mövzu ilə bağlı çıxışları dinlənilib.

Sonda çıxış edən fakültənin dekanı Vüqar Əliyev 20 Yanvarda Azərbaycan xalqının istiqlal əzmini ortaya qoyduğunu vurğulayıb.

**UNEC.** UNEC Kitabxana-İnformasiya Mərkəzi 20 Yanvar hadisələrini əks etdirən virtual kitab sərgisi və fotostend hazırlayıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) bütün tədris binalarının kitabxanasında 20 Yanvara həsr edilmiş kitab sərgiləri, fotolardan ibarət guşələr yaradılıb.

Sərgidə güşələrlə yaxından maraqlanan tələbələrə 20 Yanvar hadisələri barədə məlumat verilir.

UNEC-in e-kitabxanasında 20 Yanvara həsr olunan virtual sərgidə *https://library-.unec.edu.az/virtual-s-rgi/virtual-s-rgi-4* isə həmin hadisələr barədə tarixi gerçəkləri əks etdirən Azərbaycan, rus, ingilis dillərində kitablar haqqında məlumatlar nümayiş olunur.

**BSU.** Bakı Slavyan Universitetində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə BSU-nun rektoru səlahiyyətlərini icra edən siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Nağıyev bildirib ki, gənc nəsil 20 Yanvar faciəsini, bütövlükdə həmin dövrdə keçmiş Sovet İttifaqında baş vermiş hadisələri dərindən öyrənməlidir. Qeyd edilib ki, 1988-ci ildən başlayaraq, öz müstəqilliyinə doğru gedən Azərbaycan xalqına qarşı ciddi təhdidlər yaranmışdı. Nəticədə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya Sovet qoşunu yeridildi. Lakin Azərbaycan vətəndaşlarını kütləvi şəkildə güllələbaran edən Sovet imperiyasının rəhbərliyi xalqın milli-azadlıq hərəkatını çökdürə bilmədi. Vurğulanıb ki, 20 Yanvar faciəsinə ilk dəfə ümummilli lider Heydər Əliyev hüquqi-siyasi qiymət verib. Yanvarın 21-də Azərbaycanın Moskvadakı Nümayəndəliyinə gələn və dəhşətli qətliamı kəskin pisləyən bəyanatla çıxış edən Ulu Öndər bununla həmişə öz doğma xalqı ilə birgə olduğunu sübut etdi. Xalqımızın milli-azadlıq hərəkatının mühüm mərhələsi olan 20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyə qovuşmasında müstəsna rol oynadı.

Tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanova 20 Yanvar faciəsinin səbəb və nəticələri barədə fikirlərini bölüşüb.

Sonra “20 Yanvara aparan yol” mövzusunda məruzə ilə çıxış edən Elmi-Tədqiqat Layihələri Laboratoriyasının Azərbaycanşünaslıq və Slavistika bölməsinin müdiri, dosent, Qarabağ müharibəsi veteranı Sadir Məmmədov həmin hadisələrin canlı şahidi kimi faciə ilə bağlı maraqlı faktları, statistik məlumatları diqqətə çatdırıb.

Humanitar və sosial elmlər fakültəsinin tələbələri Xanım Gülbalayeva “Qanlı Yanvar şəhidlərini unutmarıq!”, Günel Məmmədova “İlham və Fərizə dastanı” adlı videosüjet təqdim ediblər. BSU-nun Məktəb-Lisey Kompleksinin şagirdləri isə 20 Yanvar faciəsinə həsr olunan şeir və mahnılar səsləndiriblər.

Tədbir İbtidai təhsil kafedrasının dosenti Çimnaz Məmmədovanın və digər iştirakçıların çıxışları ilə başa çatıb.

**BŞTİ.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva 20 Yanvara həsr olunmuş xüsusi dərsləri izləyib.

Xalqımızın azadlıq mübarizəsinin şanlı mərhələsini şagird və müəllimlərlə müzakirə edən BŞTİ müdiri Mehriban Vəliyeva 20 Yanvar hadisələri zamanı xalqımızın başına gətirilən müsibətlərdən və Azərbaycan xalqının azadlıq mübarizəsindən danışıb.

20 Yanvar hadisələrinin tarixindən söz açan İdarə müdiri bu proseslərə hüquqi-siyasi qiymətin böyük dövlət xadimi Heydər Əliyev tərəfindən verildiyini diqqətə çatdırıb. Mehriban Vəliyeva ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin şəhidlərin adını daim uca tutmasından, onların ailələrinin sosial müdafiəsinə xüsusi diqqət göstərməsindən bəhs edib.

Daha sonra İdarə müdiri 39 nömrəli tam orta məktəbdə təşkil olunmuş “20 Yanvar: azadlığa gedən yol” tədbirinə qatılıb.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə xalqımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İdarə müdiri Azərbaycan xalqının apardığı mübarizə tarixinin bizi 20 Yanvar hadisələrindən keçirib müstəqilliyə və zəfərə qovuşdurduğunu diqqətə çatdırıb. M.Vəliyeva 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı parlaq qələbədən bəhs edərək Vətəni sevmək, onu qorumaq, baş verən tarixi hadisələri unutmamaq və gələcək nəsillərə ötürmək üçün təhsil sahəsində mühüm işlər görüldüyünü bildirib.

20 Yanvar hadisələrinin xalqımızın zəfər yolunun başlanğıcı kimi mühüm tarixi və rəmzi mənaya malik olduğunu vurğulayan idarə müdiri Ermənistanın on illərdir davam edən işğalçılıq siyasətinə Azərbaycan xalqının Vətən müharibəsi ilə son qoyduğunu deyib.

Tədbirdə şagirdlər müstəqillik və vətənpərvərlik mövzularında şeirlər söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.